# Azərbaycan Prezidentinin təşəbbüsü beynəlxalq müstəvidə təqdir olunur

***Bu gün dünya COVID-19 virusundan əziyyət çəkir. İndiyədək bu azara yoluxanların sayı 275 milyona yaxınlaşır, pandemiyadan 5 milyon yarıma qədər insan dünyasını dəyişib, sağalanlar isə 250 milyon nəfərə qədərdir. Təkcə dekabrın 17-də dünyada yeni növ koronavirusa yoluxanların sayı 718 mindən çox olub, 7 min 34 nəfər isə pandemiyanın qurbanı olub. İnteraktiv xəritə vasitəsilə izlənən son məlumatlar nəinki yoxsul ölkələrdə, hətta ən inkişaf etmiş dövlətlərdə belə yoluxma və ölüm göstəriciləri həyəcan doğurur. Dünyada bu vaxtadək ən çox yoluxma halı ABŞ (51,4 milyon), Hindistan (34,7 milyon), Braziliya (22,2 milyon), İngiltərə (11 milyon), Rusiya (10,1 milyon), Türkiyə (9,1 milyon) və Fransada (8,4 milyon) qeydə alınıb. Bu və digər ölkələrdə hər 1 milyon nəfərə düşən ölüm sayı 2000-2500 arasındadır.***



Azərbaycan pandemiyaya qarşı mübarizədə nümunəvi mövqe sərgiləyir. İndiyədək ölkədə ümumilikdə 608 min 815 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 583 min 914 nəfəri müalicə olunaraq sağalıb, 8 min 167 nəfər vəfat edib. Aktiv xəstə sayı 16 min 734 nəfərdir ki, bu da başqa ölkələrlə müqayisədə xeyli azdır. Ölkəmizdə hər gün yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 mindən artıq test icra olunur. 25-30 min adam infeksiya əleyhinə vaksinasiya olunur. Artıq Azərbaycanda vurulan vaksinlərin ümumi sayı 11 milyonu ötüb, o cümlədən birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 5 milyon 134 min 947, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 4 milyon 634 min 404 nəfər, "buster" doza ilə peyvənd olunanların sayı 1 milyon 248 min 508 nəfər təşkil edir.

Təəssüf ki, heç də hər ölkədə vəziyyət qənaətbəxş deyil. Cari ilin sonunadək dünya əhalisinin 40 faizinin koronavirus əleyhinə peyvənd olunması üzrə qarşıya qoyulan məqsədin yerinə yetirilməsi üçün elə də ciddi səy göstərilmir. BMT-nin Baş katibi Antonio Quterreş bütün ölkələri, əsasən də məsuliyyət potensialı olan dövlətləri bu sahədə irəliləyiş əldə etmək üçün təcili olaraq konkret tədbirlər görməyə çağırıb. Baş katib hazırda 98 ölkənin Ümumdünya Səhiyyə Təşkilatının qoyduğu hədəfə hələ çatmalı olduğunu, 40 dövlətdə isə əhalinin hətta 10 faizinin peyvənd olunmadığını bildirib.

Dünyada müşahidə olunan xoşagəlməz tendensiya vaksinlərin düzgün bölüşdürülməməsi, imkanlı dövlətlərin ehtiyacı olanlara kömək etməməsidir. Fərəhli haldır ki, məhz Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə ən yüksək tribunalardan dünyanın üz-üzə qaldığı "ədalətsiz vaksin bölgüsü"nü qabardaraq, bu problemi həll etməyə çağırıb. Bu il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasında çıxış edən dövlətimizin başçısı "peyvənd millətçiliyi"ni, varlı və kasıb ölkələr arasında peyvəndlərə əlçatanlıqla bağlı qeyri-bərabərliyi bir daha pisləyib və bütün ölkələr üçün peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin olunması ilə bağlı Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasında qətnamə irəli sürülüb. Bütün ölkələrin bərabər, münasib, vaxtında və universal əlçatanlığının təmin edilməsini hədəfləyən həmin qətnamə dekabrın 16-da BMT Baş Assambleyasında 179 ölkənin dəstəyi ilə qəbul olunub. Bu şəfqət və mərhəmət sənədinin əleyhinə heç bir ölkə səs verməyib.

Prezident İlham Əliyevin COVID-19 pandemiyasına, "peyvənd millətçiliyi"nə qarşı təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən bir daha dəstəklənməsi və sözügedən qətnamənin qəbul edilməsi Azərbaycanın örnək mövqeyi kimi diqqətəlayiq faktdır.

Azərbaycan daim beynəlxalq ədalətin və hüquq normalarının təmin edilməsini, habelə hərəkata üzv dövlətlərin legitim maraqlarını güclü şəkildə müdafiə edir. Əksər imkanlı ölkələr pandemiyaya qarşı yalnız öz sərhədləri daxilində mübarizə ilə kifayətləndikləri halda, Azərbaycan qlobal liderlik rolunu üzərinə götürüb, beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkə kimi tanınır. Xatırlamaq yerinə düşər ki, Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan indiyədək bir sıra qlobal təşəbbüslərin müəllifi olub. Məsələn, 2020-ci ilin may ayında ölkəmiz Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin COVID-19 ilə mübarizəyə həsr edilmiş Zirvə toplantısını təşkil edib.

Prezident İlham Əliyev iyulun 13-də keçirilən Qoşulmama Hərəkatının Xarici işlər nazirlərinin onlayn formatda aralıq konfransında videoformatda çıxışında "Qlobal səhiyyə böhranı fonunda "peyvənd millətçiliyi" narahatlıq doğurur", – deyə bir daha xəbərdarlıq edib. Dövlət başçısı bildirib ki, ehtiyaclarından qat-qat artıq peyvənd tədarük edən bəzi ölkələrin davranışları ictimai şəkildə qınanmalıdır.

Üç ay öncə BMT Baş Assambleyasının sessiyasının ümumi müzakirələrində videoformatda çıxış edən cənab İlham Əliyev bir daha beynəlxalq ictimaiyyətin diqqətini bu probleme yönəltmiş və yüksək səviyyədə anlayış göstərilməsindən razılıq etmişdir: "Zirvə toplantısı zamanı mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsini təklif etdim. Həmin təşəbbüs BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəkləndi və 2020-ci il 3-4 dekabr tarixlərində xüsusi sessiya baş tutdu. Təşəbbüslərimizi dəstəkləyən BMT-nin Baş katibi cənab Antonio Quterreşə və bütün dövlətlərə minnətdarlığımı bildirirəm".

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin başbilənləri unutmamalıdırlar ki, imkanı olanın insafı, imanı da olmalıdır. Azərbaycan rəhbəri hər zaman gur səslə bildirir ki, COVID-19-dan sonra daha yaxşı bərpa üçün güclü əlaqələndirilmiş və məqsədyönlü qlobal addımlar atılmalıdır. Bu mənada rəsmi Bakı pandemiyadan sonrakı dövr üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlayaraq, BMT-nin postpandemiya mərhələsində daha sağlam dünyayla bağlı Yüksək Səviyyəli Panelinin yaradılmasını təklif edib.

Təşəbbüs irəli sürən tərəfin örnək nümayiş etdirməsi xüsusilə vacib şərtdir. Bu sarıdan da, necə deyərlər, bizim üzümüz ağdır. Azərbaycanda peyvəndlənmə dinamikası yüksəkdir. 2021-ci ilin lap əvvəlindən ölkəmizdə bütün cəbhə boyu peyvəndləmə kampaniyasına başlanıb. Hər 100 nəfərə istifadə edilmiş vaksin dozalarının həcmi 80 faizdən artıqdır.

Azərbaycan Prezidentinin peyvənd millətçiliyinə qarşı təşəbbüsünün beynəlxalq müstəvidə öz təqdirini tapması bir daha ölkəmizin dünya çapında artan nüfuzunun göstəricisi sayılmalıdır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***